

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 sentyabr 2021-ci il №68 (2576) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər

*Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub.*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər.

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli mərasim iştirakçıları.

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qalmışdır. Bu gün isə məqbərə tam bərpa edilib və dünən məqbərənin ikinci açılışı olmuşdur.

Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını ulu öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır.

Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdır. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı. Çünki Şuşanın strateji əhəmiyyəti, əlbəttə ki, bizim üçün itirilmiş oldu və düşmən bundan istifadə edərək, ondan bir neçə gün sonra - 1992-ci ilin mayında Laçını da işğal etdi. Ondan bir il sonra - 1993-cü ilin aprelində Kəlbəcəri işğal etdi və beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı. Bizim məğlubiyyətimizin qaçılmaz olması göz qabağında idi, nəzərə alsaq ki, o vaxt Azərbaycanda hərc-mərclik dövrü idi, nizami ordu yox idi, vətəndaş qarşıdurması baş vermişdi.

Şuşanın itirilməsi digər rayonların itirilməsinə təkan vermişdi. Ancaq biz Azərbaycan xalqı olaraq heç vaxt bu işğalla barışmaq fikrində deyildik. İşğal dövründə mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, işğal edilmiş bütün torpaqları, o cümlədən Şuşanı nəyin bahasına olursa-olsun işğalçılardan azad edəcəyik.

Bildiyiniz kimi, danışıqlar prosesi 30 ilə yaxın davam etdi, bunun heç bir nəticəsi olmadı. İndiki hadisələrin gedişatı, İkinci Qarabağ müharibəsindəki dövr və beynəlxalq güclərin hərəkətləri onu göstərir ki, bu məsələ heç vaxt danışıqlar yolu ilə öz həllini tapa bilməzdi. Çünki bizi, azərbaycanlıları bu vəziyyətlə barışdırmaq istəyirdilər. Bu vəziyyəti, yəni, dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar. Bizim isə tam başqa fikrimiz var idi və mən bunu heç vaxt gizlətmirdim. Deyirdim ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, biz öz ərazi bütövlüyümüzü müharibə yolu ilə bərpa edəcəyik. Beynəlxalq hüququn bütün norma və prinsipləri bu haqqı bizə tanıyır. BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, tarixi ədalət bu haqqı bizə verib. Biz buna nail olduq.

Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.


**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər





(Əvvəli 1-ci səhifədə)

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır. Müharibədən sonra mən ilk dəfə Şuşaya bu il yanvarın 14-də gəlmişdim. Bu tarix də təsadüfən seçilmədi. Çünki o tarixdən 39 il əvvəl burada Ulu Öndərin iştirakı ilə Vaqifin məqbərəsi açılmışdı və məhz yanvarın 14-də mənim buraya gəlməyimin çox böyük rəmzi mənası var idi. Buraya ilk səfərimdə ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin, çünki vandallar bu məqbərəni dağıtmışdılar, sökmüşdülər. Vaqifin içəridəki barelyefini, sinə daşını sökmüşdülər. Yəni, onlara xas olan vandalizm törətmişdilər, necə ki, azad edilmiş bütün başqa torpaqlarda biz bunun şahidiyik. Məqbərənin bərpasını Heydər Əliyev Fondu öz üzərinə götürdü və bu gün biz bu məqbərənin önündə Vaqif Poeziya Günlərinə start veririk. Vaqif Poeziya Günləri də bərpa edildi, "Xarıbülbül" festivalı da bərpa edildi. Bu ilin may ayında biz çox böyük coşqu ilə bu festivalı keçirdik və bu tarixi bərpa etdik.

İlk səfərim çərçivəsində Şuşanın bərpası ilə bağlı bütün lazımi göstərişlər verildi və yanvar ayından bu günə qədər - 7 ay ərzində artıq çox böyük işlər görülüb. Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər. Bəli, şəhər hələ ki, dağılmış vəziyyətdədir. Çünki ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurunun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar dağıdılıb.

Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa



yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi artıq bərpa edildi. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü bərpa edildi, dünən onun ikinci açılışı olmuşdur. Üç məsciddə təmir-bərpa işləri gedir. Yuxarı Gövhərağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir. Saatlı və Aşağı Gövhərağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi, artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı.

Ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu. Dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdır. Dünən "Qarabağ" oteli əsaslı təmirdən sonra öz qapılarını yenidən qonaqların üzünə açdı. İşğal dövründə "Qarabağ" oteli nə gündə idi, onu biz işğaldan sonra görmüşdük. Cəmi iki mərtəbəsi işləyirdi, nə su var idi, nə işıq var idi. Bərbad vəziyyətdə idi, dağılmış vəziyyətdə idi. O kadrlar var. O da bərpa edildi və hesab edirəm ki, bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır.

Yeni otel beşulduzlu olacaq. Orada 150 otaq olacaq. Hazırda Şuşada "Qarabağ" və "Xarıbülbül" otellərində 150 otaq mövcuddur, 300 otaq, böyük konfrans zalı və tədbirlər üçün yerlər olacaqdır. Beşulduzlu otelin yeri də mənim tərəfimdən seçildi. Mənfur düşmən həmin yerdə dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulmuşdu və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi.

Beşulduzlu otel gözəl yerdə inşa ediləcək. Ən önəmli tədbir dünən yeni yaşayış kompleksinin təməl daşının qoyulması idi. Bu yaşayış kompleksi Şuşanın baş planı əsasında inşa ediləcək. Şuşanın baş planı təsdiq edildi və çox müfəssəl, gözəl işlənmiş plandır. Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur - üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar.

Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik.

Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

İşğal dövründə bir çoxlarımız - həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də mən dəfələrlə fikirləşirdik ki, dünyada ədalət yoxdur. Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik. Mən də o cümlədən belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır. Ədaləti bərpa etmək üçün fədakarlıq göstərmək lazımdır. Bu gün biz hamımız ürəyimizdə deyirik və açıq deyirik ki, bəli, ədalət var, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq.

Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq burada keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

* * *

Sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, Xalq şairi Nəriman Həsənzadə, Azərbaycan Yazıçılar Birliyinin katibi, yazıçı-publisist İlqar Fəhmi, Xalq yazıçısı Elçin Əfəndiyev, Azərbaycan Yazıçılar Birliyinin üzvləri şairə Günel Şamilqızı və şair Şəhriyar Del Gerani çıxış etdilər.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda: Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycanın müdafiə naziri Türkiyənin milli müdafiə naziri və baş qərargah rəisinə təbrik məktubu ünvanlayıb

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akara və baş qərargah rəisi ordu generalı Yaşar Gülerə təbrik məktubu ünvanlayıb.

Təbrikdə deyilir: "Sizi, ailənizi və tabeliyinizdə olan şəxsi heyəti Zəfər Bayramı və Türk Silahlı Qüvvələri Günü münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür, ailə səadəti, çətin və şərəfli işinizdə müvəffəqiyyət arzulayıram.

Əminəm ki, dost və qardaş Türk Silahlı Qüvvələri bütün çətinliklərdən layiqincə çıxacaq və qurumlarımız arasında mövcud əməkdaşlığımız bundan sonra daha da genişləndiriləcək və möhkəmləndiriləcəkdir.

Fürsətdən istifadə edərək Sizə hörmət və ehtiramımı izhar edirəm".

## Türkiyə Milli Müdafiə Nazirliyinin Quru Qoşunları Məktəbində buraxılış mərasimi keçirilib

Türkiyənin Ankara şəhərində yerləşən Milli Müdafiə Nazirliyinin Quru Qoşunları Məktəbində növbəti buraxılış mərasimi keçirilib.

Ölkəmizin Türkiyədəki Səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, Prezident Rəcəb Tayyib Ərdoğanın, Türkiyə milli müdafiə nazirinin, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin, müxtəlif qoşun növləri üzrə komandanların, Türkiyədə akkreditasiya olunan diplomatik korpus heyətinin, eləcə də hərbi attaşe, dövlət və hökumət nümayəndələrinin iştirakı ilə keçirilən mərasimdə Azərbaycan da təmsil olunub.

Hər il olduğu kimi, builki məzunların arasında Azərbaycan Ordusunun zabitləri də yer alıblar.

Mərasimdə Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov da iştirak edib.

## Müdafiə naziri xidməti müşavirə keçirib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, avqustun 30-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib. Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdıran müdafiə naziri bildirib ki, Azərbaycan Ordusunda aparılan islahatlar bundan sonra da davam etdiriləcək.

Müdafiə naziri Türkiyənin milli müdafiə naziri və baş qərargah rəisini, o cümlədən qəhrəman türk əsgərini 30 avqust - Türkiyənin Zəfər Bayramı və Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib.

Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyəti təhlil edən müdafiə naziri qarşı tərəfin təxribat fəaliyyətinə dərhal adekvat cavabın verilməsi, qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlar verib.

Azərbaycan Ordusunda planlaşdırılan tədbirlərə toxunan general-polkovnik Zakir Həsənov azad edilmiş ərazilərdəki bölmələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılması, bölmələrin qışa hazırlığının təmin edilməsi ilə bağlı müvafiq göstərişlər verib. Nazir nizam-intizam və təhlükəsizlik, o cümlədən yanğın təhlükəsizliyi qaydalarına riayət olunması, eləcə də hərbi qulluqçuların tibbi təminatının daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib.

## Əlahiddə Ümumqoşun Orduda "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Vətən Müharibəsi Qəhrəmanları şəhid polkovnik-leytenant Anar Əliyevin və şəhid kapitan Nihad Babayevin doğum günləri münasibətilə "Qəhrəmanlar unudulmur" adlı tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə şəhidlərimizin xatirəsi yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının tələbə-gənclər və veteranlar təşkilatlarının, ictimaiyyət, mədəniyyət, incəsənət, mətbuat nümayəndələrinin, qazilərin və hərbi qulluqçuların iştirak etdiyi tədbirdə şəhid polkovnik-leytenant A.Əliyevin və şəhid kapitan N.Babayevin qəhrəmanlıqlarından bəhs edən videoçarxlar nümayiş etdirilib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik-leytenant Fariz Sərxanov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Mirməcid Seyidov, şəhid polkovnik-leytenant A.Əliyevin qohumu Vüsal İsmayılov, döyüş yoldaşı mayor Əlqəm Gözəlov, xidmət yoldaşları polkovnik Rüstəm Cavadov və polkovnik Haqverdi Dadaşov, şəhid kapitan N.Babayevin döyüş yoldaşı kapitan Əli Kərimov və digər qonaqlar çıxış ediblər.

Şəhid qəhrəmanlarımız haqqında bildirilib ki, Vətən müharibəsində məğlub edilən düşmən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının gücünə və döyüş əzminə "Günnüt əməliyyatı"ndan bələd idi. "Təlimdə tər, döyüşdə zəfər" prinsipi ilə peşəkarlaşan hərbi qulluqçularımız döyüşlərdə "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün" şüarı ilə geridə yaralı və şəhid buraxmadan böyük əzmlə Şuşa şəhərinədək irəliləyiblər. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi zəfər dolu uğurlu əks-hücum əməliyyatında öz şücaəti ilə düşmənə layiqli cavab verərkən şəhid olan qəhrəman Vətən oğullarının əziz xatirəsi daim böyük hörmət və ehtiramla yad edilir, şəhid ailələri və qazilərimiz dövlətin hərtərəfli qayğısı ilə əhatə olunur. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr və 15 dekabr tarixli sərəncamları ilə şəhid polkovnik-leytenant Əliyev Anar Vaqif oğluna və şəhid kapitan Babayev Nihad Akif oğluna ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib və onlar "Vətən uğrunda" medalları ilə təltif olunublar. 2021-ci il iyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" adının döş nişanı və vəsiqəsi, "Vətən uğrunda" medalı şəhidlərimizin ailə üzvlərinə təqdim edilib. Vətən müharibəsi iştirakçılarının, şəhidlərimizin və qazilərimizin xidmətlərinin yüksək qiymətləndirilərək təltif olunmaları gənclərimizin vətənpərvər ruhda tərbiyəsində mühüm rol oynayır.

Hərbi hissələrin özfəaliyyət kollektivlərinin ədəbi-bədii kompozisiya ilə çıxış etdiyi tədbirdə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru Zakir Fətəliyev və əsgərlər tərəfindən vətənpərvərlik şeirləri səsləndirilib.

Naxçıvan Qarnizonu Hərbi Orkestrinin ifasında Xüsusi Təyinatlı Qüvvələr Marşı səsləndirildikdən sonra tədbirə yekun vurulub.

## Naxçıvanda Türkiyənin Zəfər bayramı qeyd edilib



Avqustun 30-da Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsi ziyarət edilib. Əvvəlcə türk dünyasının böyük oğlunun əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Azərbaycan və Türkiyə Respublikalarının Dövlət himnləri səsləndirilib, tədbir iştirakçıları Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi önünə gül dəstələri qoyub, ehtiramlarını ifadə ediblər.

Tədbir Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda davam edib.

Qeyd edək ki, görkəmli dövlət xadimi, istedadlı hərbçi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazanıb. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil olub. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin hərb zirvəsi, minlərlə şəhid qanı ilə suvarılan Vətən torpağının düşmən tapdağından xilası idi. Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək olub, döyüşlərdə iştirak edərək şəhidlər verib.

Böyük tarixi kökə malik olan Azərbaycan-Türkiyə əlaqələrinin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Hər iki dövlətin qurucularının - ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Qardaş türk xalqının öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" və ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət iki dövlətdir" kəlamları Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən mükəmməl konsepsiyadır. Bu konsepsiya ötən il 44 günlük Vətən müharibəsində də özünü ən parlaq şəkildə göstərib.

# "Beynəlxalq Ordu Oyunları-2021"



*"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsi davam edir. Doqquz ölkənin iştirak etdiyi müsabiqənin növbəti mərhələsində tapşırıqlar gecə vaxtı icra edilib.*

Bu mərhələdə komandalar zirehli döyüş maşınlarında gecəgörmə cihazlarından istifadə etməklə marşrut üzrə təyin olunan müxtəlif manevrləri dəf edib, həmçinin işıqlandırılan hədəflərə minaatanlar, qumbaraatanlar və avtomatlardan atəş açıblar.

Hərbçilərimiz bu mərhələdə də bütün hədəfləri sərrast atəşlə məhv edib.

İkinci mərhələnin nəticələrinə görə Qazaxıstan birinci, Rusiya ikinci, Azərbaycan artilleriyaçıları isə üçüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, "Artilleriya atəşinin ustaları" müsabiqəsi üç mərhələdən ibarətdir.

* * *

Tankçılarımız Rusiya Federasiyasının Moskva şəhərinin Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsinin növbəti mərhələsində uğurla iştirak ediblər.

"Fərdi sürmə" mərhələsində gücləri sınayan komandamızın növbəti tank heyəti də uğurla çıxış edib.

Müsabiqənin şərtlərinə uyğun olaraq bu mərhələ üzrə müxtəlif manevrlərlə hədəfləri məhv edən tankçılarımız qrupda ikinci yerdə qərarlaşıb.

Belarus birinci, Serbiya üçüncü, Qazaxıstan komandası isə dördüncü yerə layiq görülüb.



* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Qazaxıstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin növbəti mərhələsi keçirilib.



Komandamızın ikinci heyəti də fərdi mərhələdə uğurla çıxış edib. Təyin olunmuş hədəfləri sərrast atəşlə məhv edən artilleriyaçılarımız hakimlərin qərarına əsasən doqquz komanda arasında üçüncü yerə layiq görülüblər.

Birinci və ikinci yerləri isə müvafiq olaraq Rusiya və Qazaxıstandan olan artilleriyaçılar qazanıblar.

* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən "Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsi davam edir.

Yaradıcılıq müsabiqəsinin "Tamaşaçı rəğbəti" mərhələsində komandalar təmsil etdikləri ölkələrin xalq musiqilərini və rəqslərini təqdim ediblər.

Müsabiqə yerli televiziya kanalları və Rusiya Federasiyası müdafiə nazirliyinin rəsmi youtube kanalı vasitəsilə yayımlanıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının kollektivinin təqdim etdikləri peşəkar ifa və rəqsin xoreoqrafik mürəkkəbliyi, zərifliyi və dəqiqliyi izləyicilərin diqqətini cəlb edərək, xoş təəssüratlar bağışlayıb.

Komanda üzvlərinin birgə gərgin əməyi sayəsində hazırlanan repertuar iştirakçı komandaların nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib.

"Mədəniyyət Ordusu" yaradıcılıq müsabiqəsinin "Tamaşaçı rəğbəti" mərhələsinin qalibi **https://golosovanie-ac.mil.ru** rəsmi internet səhifəsində tamaşaçıların səsverməsi əsasında müəyyənləşəcək.

Qeyd edək ki, müsabiqənin keçirilməsində əsas məqsəd iştirak edən ölkələr arasında qarşılıqlı mədəniyyəti, incəsənəti və musiqi ənənələrini tanıtmaqdır.

* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsinin növbəti mərhələsi keçirilib.

Hərbi dənizçilər müsabiqənin "Dəniz hazırlığı" mərhələsində gəminin lövbərə və çəlləyə dayanması tapşırıqlarını yerinə yetiriblər.

Hakimlər komissiyasının qərarına əsasən bu mərhələdə Rusiya komandası 38 xalla birinci, Qazaxıstan və İran komandaları 36 xalla ikinci, Azərbaycan HDQ-nin komandası isə 32 xalla üçüncü yerə layiq görülüblər.



Ümumi xal hesabına görə isə İran komandası 94 xalla müsabiqənin lideridir. Qazaxıstan komandası 85 xalla ikinci, Rusiya komandası 84 xalla üçüncü, Azərbaycan hərbi dənizçiləri isə 80 xalla dördüncü yerdə qərarlaşıblar.



* * *

Azərbaycanı təmsil edən tankçılar "Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində yarımfinal mərhələsinə vəsiqə qazanıblar.

Tankçılarımız avqustun 29-da Rusiya Federasiyasının Moskva şəhərinin Alabino hərbi poliqonunda keçirilən "Tank biatlonu" müsabiqəsinin "Fərdi sürmə" mərhələsində (sonuncu üçüncü) Qazaxıstan, Serbiya və Belarusdan olan tankçılar ilə mübarizə aparıblar.

Mərhələnin nəticəsinə əsasən birinci yerdə Belarusu, ikincidə Qazaxıstanı, üçüncüdə Azərbaycanı, dördüncüdə isə Serbiyanı təmsil edən komandalar qərarlaşıb.

Beləliklə, 11 komanda arasında 4-cü yerdə olan tankçılarımız yarımfinala yüksəliblər.



* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri ətrafında yerləşən "Patriot" parkında "Tank biatlonu" müsabiqəsinin yarımfinal mərhələsində iştirak edəcək komandaların avqustun 30-da püşkatma mərasimi keçirilib.

Komandaların rəhbərləri, məşqçilər və tank heyətlərinin iştirak etdiyi püşkatmanın nəticələrinə əsasən Azərbaycan tankçıları birinci divizionda Rusiya, Qazaxıstan və Çin komandaları ilə mübarizə aparacaqlar.

Yarımfinalda Azərbaycan komandası qırmızı, Rusiya komandası göy, Çin komandası sarı, Qazaxıstan komandası isə yaşıl rəngdə olan tanklarda yarışacaqlar.

* * *

"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində İran İslam Respublikasının Ənzəli şəhərində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak edən ölkələrin hərbi dənizçiləri Xəzər dənizindəki döyüş hazırlığı poliqonunda "Artilleriya atəşlərinin yerinə yetirilməsi üzrə yarış" mərhələsinin "Üzən minaya artilleriya atışı" tapşırığını yerinə yetiriblər.

Tapşırığın şərtlərinə görə hərbi dənizçilər hərəkərdə olan gəmilərdən müəyyən məsafədə üzən iki mina hədəfini ümumilikdə 32 patron istifadə edilməklə məhv ediblər.

Hakimlər komissiyası hədəflərin məhv olunması və gəmilərin vaxt baxımından poliqonu daha tez tərk etməsi üzrə qiymətləndirmə aparıb.

Tapşırığın yekununda İran komandası 38 balla birinci, Rusiya 36 balla ikinci, Qazaxıstan 34 balla üçüncü, Azərbaycan hərbi dənizçiləri isə 28 balla dördüncü yerdə qərarlaşıblar.

Hazırda müsabiqənin növbəti mərhələsi keçirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# İsmayıllı rayonunda şəhidlərimizin anım tədbirləri keçirilib




*Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin və İsmayıllı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidləri Etibar Fazil oğlu Şirinovun və Aqil Mehman oğlu Mirzəliyevin doğum günləri münasibətilə xatirə tədbirləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə nazirliyin rəsmiləri, rayon rəhbərliyi, şəhidlərin ailə üzvləri, yaxınları, döyüşçü dostları, xidmət etdikləri hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, müharibə iştirakçıları, qazilər, eləcə də gənclər, məktəblilər iştirak ediblər.

İvanovka kənd qəbiristanlığında şəhid əsgər Etibar Şirinovun məzarı ziyarət olunaraq qarşısına əklillər qoyulub, önünə qərənfillər düzülüb. Azərbaycanın ərazi bütövlüyünün qorunması, bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani xalqımızın qəhrəmanlıq ənənələrindən, Azərbaycan oğullarının tarix boyu öz torpaqlarını yadellilərin basqınlarından, hücumlarından mərdliklə, qətiyyətlə qorumalarından, Vətənin dar günündə hamının elliklə düşmən üzərinə yürüdüyündən və işğal olunmuş torpaqlarımızın son 300 il ərzində ilk dəfə olaraq güc yolu ilə azad edilməsindən - 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan üzərində qazandığımız möhtəşəm qələbədən danışıb. Bu qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, əsgər və zabitlərimizin misilsiz qəhrəmanlıqlarının, respublikamızda yaşayan bütün xalqların Vətənin dar günündə birliyinin və dövlətimizin başçısının polad iradəsinin, hücum diplomatiyasının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin, dəmir yumruğunun qələbəsi olduğunu iftixar hissi ilə nəzərə çatdırıb.

Qeyd olunub ki, Vətən müharibəsinin ilk günlərindən İsmayıllı rayonunda da hər kəs müharibə əhval-ruhiyyəsi ilə yaşayıb. "Hər şey ordu üçün, hər şey qələbə üçün!" sözləri bütün sakinlərin şüarına çevrilib. Bu rayonun əhalisi bir nəfər kimi ayağa qalxaraq düşmənlərimizi və onların havadarlarını lənətləyib, tarixi torpaqlarımızı tezliklə işğaldan azad edəcəklərinə inanıblar. Həm də bu torpağın insanları arxa cəbhədə də ümumi qələbəmiz naminə səylərini əsirgəməyiblər.

Birinci Qarabağ müharibəsi veteranlarından olan Taleh Nəcəfovun oğlu miçman Fuad Nəcəfov, Murovdağın ilk şəhidlərindən olan Məmiş Səlimzadənin oğlu gizir Kənan Səlimzadə atalarının yollarını uğurla davam etdirərək şəhidlik zirvəsinə ucalıblar. Mayasını bu torpaqdan alan Azərbaycan Ordusunun zabiti polkovnik-leytenant Anar Mirzəyev "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Dilqəm Həmidli, Kamil Salmanov, Elvin Rəsulov və neçə-neçə qazi bu gün də Müzəffər Ali Baş Komandanın əmrlərinə hazırdırlar.

Polkovnik A.Qurbani vurğulayıb ki, öz qabaqcıl əmək nailiyyətləri ilə həmişə fərqlənən İvanovka kəndinin rus icmasının üzvləri, eləcə də bu kənddə yaşayan digər xalqların nümayəndələri də həm müharibə ərəfəsində, həm də müharibənin gedişində vətənpərvərlik nümunələri göstərərək qələbəmiz naminə köməklərini əsirgəməyiblər. Kənd əhalisi bu gün də Azərbaycan uğrunda hər bir çağırışa müsəlləh əsgər kimi hazırdır. Burada xalqlar arasında ayrı-seçkilik yoxdur. Hər bir ivanovkalı Azərbaycan vətəndaşıdır, azərbaycanlıdır və qarabağlıdır. Qarabağ isə Azərbaycandır!

Sonra şəhid əsgər E.Şirinovun hər bir gənc üçün örnək olan qısa, lakin mənalı, şərəfli ömür yolu haqqında məlumat verilib.

Atası Azərbaycan türkü, anası ləzgi olan Etibarın əsl azərbaycanlı, əsl Azərbaycan vətəndaşı olduğu və bunu Vətən müharibəsi cəbhələrində qanla yazdığı şəhidlik dastanı ilə təsdiq etdiyi xüsusilə vurğulanıb.

Xatirə mərasimi iştirakçılarının nəzərinə çatdırılıb ki, 29 il öncə bu kənddə doğulan Etibar Fazil oğlu qismən səfərbərlik üzrə orduya çağırılıb. Füzuli, Cəbrayıl, Zəngilan uğrunda döyüşlərdə qarşıya qoyulan döyüş tapşırıqlarını həmişə uğurla yerinə yetirilməsinə nail olub. Respublikamızın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, şəxsi mərdlik və igidlik nümunələri göstərdiyinə görə o, ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Bütün şəhidlərimiz kimi E.Şirinovun da xatirəsi həmişə əziz tutulur, ailəsi daim diqqət mərkəzindədir.



İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov İsmayıllı rayonunun sakinlərinin bu gün də Müzəffər Ali Baş Komandanın hər bir əmrinə, çağırışına hazır olduqlarını, qələbə əhval-ruhiyyəsi ilə yaşadıqlarını, bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərini, şəhid ailəsi üzvlərinə, müharibə iştirakçılarına, qazilərə bundan sonra da qayğı ilə yanaşılacağını, onların istənilən problemlərinin həllində yardımçı olacaqlarını bir daha qeyd edib.

Müdafiə Nazirliyinin rəhbərliyinə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində rayonda keçirilən tədbirlərə həmişə yüksək dəstək verdiyinə görə minnətdarlığını bildirib.

Şəhid E.Şirinovun ölümündən sonra təltif olunduğu "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları da şəhidin ailəsinə təqdim edilib.

Vətən müharibəsi qazisi İlyar Salmanovun şəhidin məzarı önündə dayanaraq dostuna döyüşdə olanları bir daha xatırlatması, Azərbaycanın düşmən üzərində qələbə çalması ilə onların arzularının çin olması müjdəsini verməsi və yaralı olsa da bu gün də Müzəffər Ali Baş Komandanın əmrlərinə hazır olduğunu bəyan etməsi hər kəsdə duyğulu və qürurverici anlar yaşadıb.



İvanovka kənd tam orta məktəbinin direktoru Əfqan Soltanov yetirmələri olan oğullarla fəxr etdiklərini, məktəbin məzunlarının cəbhələrdə qəhrəmanlıqla vuruşduqlarını, E.Şirinovun şəhidlik məqamına yüksəldiyini qürur hissi ilə tədbir iştirakçılarına çatdırıb.

İvanovka məktəbinin Azərbaycan və rus bölmələrinin şagirdləri hər iki dildə möhtəşəm Zəfərə, şəhidlərə həsr olunmuş şeirlər söyləyiblər.

Şəhidin Bakı, Şamaxı, Ağcabədi, Astara, Qəbələ, Oğuz, Zaqatala, Balakən və digər şəhər və rayonlardan gələn döyüşçü dostları məzar qarşısında şəhidlərimizin intiqamını döyüş meydanlarında aldıqlarını qeyd edib. Bu gün də, sabah da Azərbaycan uğrunda hər bir əmrə hazır olacaqlarına and içiblər.

Şəhidin dayısı Nəsrəddin İsayev göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə və ziyarətçilərə minnətdarlıq edib.

Şəhidin atası Fazil Şirinov və anası Əfruz xanım "Bu diqqət və qayğını gördükdən sonra nə ixtiyarımız var ki, "Vətən sağ olsun!" deməyək, oğlumuz Vətən uğrunda şəhid olub, qoy Vətənimiz daha da çiçəklənsin, bayrağımız daha da ucalarda dalğalansın", - deyiblər.

Günün ikinci yarısında şəhid əsgər Aqil Mirzəliyevin doğum günü münasibətilə onun dəfn edildiyi İsmayıllı şəhər Şəhidlər xiyabanında xatirə mərasimi keçirilib.

Tədbirdə polkovnik A.Qurbani şəhidin 21 illik ömür yolu haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

A.Mirzəliyev 27 avqust 1999-cu ildə İsmayıllı şəhərində anadan olub. Orta məktəbdə oxuduğu illərdə nizam-intizamı, istedadı və qabiliyyəti ilə həmişə seçilib. Respublika fənn olimpiadalarında, intellektual yarışlarda, müsabiqələrdə fərqlənib. Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra qəbul imtahanlarından 613 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub, oranı yüksək nəticələrlə başa vuraraq müddətli həqiqi hərbi xidmətə yollanıb.

Vətən müharibəsinin ilk günündən Murovdağın zirvələri uğrunda döyüşlərə qatılıb. Sonra Füzuli, Xocavənd rayonlarının bir çox yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edib. Xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlib. Oktyabrın 20-də Xocavənd rayonunun Hadrut qəsəbəsinin Tuğ kəndinə çıxışındakı yüksəklikdə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Bütün şəhidlərimiz kimi A.Mirzəliyevin də intiqamı tezliklə və artıqlaması ilə düşməndən alınıb. Şəhidin qanına boyanan bayrağı döyüşçü dostları Şuşada Gəncə qapısına sancıblar.

Bədii qiraət ustası Pünhan İsmayıllının alovlu çıxışı tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı N.Bağırov Vətənə Aqil kimi vətənpərvər oğul, ordumuza Aqil kimi cəsarətli, mübariz, igid əsgər bəxş etdikləri üçün şəhidin valideynlərinə minnətdarlıq edib.

İcra başçısı çıxışını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Müzəffər Ali Baş Komandanın dediyi sözlərlə yekunlaşdırıb: "Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz - onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır".

Şəhidlər xiyabanında keçirilən xatirə mitinqindən sonra şəhid A.Mirzəliyevin yaşadığı İsmayıllı şəhər, Babək küçəsi-2 ünvanındakı evə xatirə lövhəsi vurulub, onun xatirə muzeyi açılıb. Ölümündən sonra layiq görüldüyü "Kəlbəcərin azad olunmasına görə" medalı ailəsinə təqdim edilib. Məzunu olduğu Azərbaycan Dövlət İqtisad Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Şəhər məktəbliləri ədəbi-bədii kompozisiya ilə çıxış edib, qəhrəmanın döyüş yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

# Şəhid mayor Rüfət Əsgərovun doğum günündə xatirəsi anılıb




*Vətən müharibəsində qəhrəmanlıqla döyüşərək şəhid olan mayor Rüfət Əsgərovun doğum günündə xatirəsi yad olunub.*

Anım mərasimində şəhidin ailəsi, dostları, döyüşçü və hərbçi yoldaşları, o cümlədən Müdafiə Nazirliyinin əməkdaşları, Xətai rayon İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə mərasim iştirakçıları İkinci Fəxri xiyabanda dəfn olunan igidimizin qəbrini ziyarət edib, məzarı üzərinə gül dəstələri qoyublar.

Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində davam edən anım mərasimində şəhid zabitin şərəfli həyat yolundan, onun torpaqlarımızın işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşməsindən, cəsarət və qorxmazlığından, Vətəninə, torpağına, elinə-obasına bağlılığından danışılıb. Çıxış edənlər Rüfət Əsgərov kimi vətənpərvər oğullarımızın xalqımızın yaddaşında əbədi yaşayacağını və onun kimi igidlərimizin qəhrəmanlığının gənc nəslə örnək olduğunu xüsusi vurğulayıblar.





Sonda şəhidin həyat yoluna dair videoçarx nümayiş olunub və vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim edilib.

# Lənkəranda şəhid zabitin xatirəsinə abidə-bulaq kompleksinin açılışı oldu



*Müdafiə Nazirliyi və Lənkəran rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi baş leytenant Həsənağa Abdullazadənin xatirəsinə Lənkəran şəhərində adını daşıdığı küçədə abidə-bulaq kompleksinin açılış mərasimi oldu.*

Açılış mərasimində şəhidin ailə üzvləri, Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Lənkəran şəhər İcra Hakimiyyətinin rəhbərliyi, millət vəkili, təhsil aldığı orta məktəbin bir qrup müəllimi, məktəblilər, şəhidin döyüş yoldaşları, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Şəhər rəhbərliyinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə abidə-bulaq kompleksinin qırmızı lenti fəxri qarovul və hərbi orkestrin müşayiəti ilə kəsildi.

Sonra aparıcı mərasimi açıq elan edərək iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etməyə dəvət etdi.

Hərbi orkestrin müşayiətilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Rüfət Məmmədov Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı Böyük Zəfərdən danışdı. "Bu Zəfərin qazanılmasında Vətənimizin igid oğulları böyük qəhrəmanlıqlar göstərdilər. Döyüş meydanında bunların canlı şahidiyəm. Ordumuzun yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı əsgər və zabitləri 44 günlük Vətən müharibəsində xalq, ordu, dövlət birliyindən güc alaraq işğal olunmuş torpaqlarımızı azad etdilər. Həsənağa kimi qəhrəman oğullar Azərbaycanımızın üçrəngli bayrağını azad olunmuş torpaqlarımızda ucaltdılar. Ölkə rəhbərinin "Qarabağ Azərbaycandır!" kəlməsini döyüşlərdə də təsdiqlədilər".

Millət vəkili Rüfət Quliyev çıxışında bildirdi ki, şəhid və qazilərin Vətən qarşısında xidmətləri dövlətimiz və xalqımız tərəfindən yüksək dəyərləndirilir. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına, sərəncamlarına uyğun olaraq onların sosial-məişət şəraitinin gücləndirilməsi məqsədilə çox ciddi işlər həyata keçirilir. Lənkəranlılar torpaqlarımızın azad olunmasında övladlarının, qardaşlarının, atalarının, doğmalarının göstərdikləri əvəzsiz xidmətləri ilə qürur duyurlar. Lənkəranlılar Birinci Qarabağ müharibəsində də ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak ediblər. Xalqımız heç zaman şəhid övladlarını unutmur, onların adları təhsil aldıqları məktəblərdə, parklarda və digər ictimai yerlərdə əbədiləşdirilir".



Tədbirdə çıxış edən Lənkəran rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il sentyabrın 27-də başlanan və Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin böyük əhəmiyyətindən, dövlətimizin, ölkə rəhbərliyinin şəhid ailələrinə göstərdiyi yüksək diqqət və qayğısından danışdı və qeyd etdi ki, Həsənağa Abdullazadənin peşəkarlığı, vətənpərvərliyi ilə hər bir lənkəranlı fəxr edir. "Vətənə belə qorxmaz, mərd, əsl hərbçi oğul böyüdüb boya-başa çatdırdıqlarına görə onun valideynlərinə minnətdarlığımı bildirirəm. Bütün şəhid ailələrinə səbir diləyirəm, yaralılarımıza şəfa arzulayıram".

Sonra şəhid zabitin anası göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə və abidə-bulaq kompleksinin açılışında böyük zəhməti olan Lənkəran rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığını bildirdi. "Bu gün Həsənağa tək lənkəranlıların deyil, bütün Azərbaycanın oğludur. Bizim oğlumuz Vətən, torpaq uğrunda canından keçdi. Oğul övladı Vətən, torpaq üçün doğulur. Həsənağa Vətən uğrunda şəhid oldu. Bütün şəhid analarına səbir diləyirəm".



Sonra Vətən müharibəsinin şəhid zabiti Həsənağa Abdullazadənin şərəfli döyüş yolu barədə məlumat mərasim iştirakçılarının diqqətinə çatdırıldı. Bildirildi ki, şanlı döyüş yolu keçən baş leytenant H.Abdullazadə və onun kimi qəhrəman şəhidlərin əziz xatirəsini xalqımız heç bir zaman unutmayacaq, onların adları daima qəlblərdə yaşayacaq.

Qeyd edildi ki, baş leytenant Həsənağa Abdullazadə göstərdiyi şücaətlərə görə (ölümündən sonra) 3-cü dərəcəli Rəşadət ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. H.Abdullazadə Bakı şəhərində İkinci Fəxri xiyabanda dəfn edilib.

Tədbirdə şəhidin döyüşçü yoldaşları və orta məktəb müəllimləri onunla bağlı xatirələrindən söhbət açdılar.

Mərasim şəhid zabitin xatirəsinə həsr edilən "Həsənağa imzası var" ədəbi-bədii kompozisiyanın nümayişi və məktəblilərin ifasında şeirlərin səsləndirilməsi ilə başa çatdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı.

**Suallar:**
**1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü.**
**2. Dövlətimizin iqtisadi inkişaf strategiyası.**

## Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi olaraq qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır. Unitar dövlət (latın dilində "unus" - "vahid", "tək" deməkdir) - sadə, bəsit, vahid dövlətdir ki, onun tərkibi bir qayda olaraq inzibati-ərazi vahidlərindən (vilayət, mahal, rayon, departament və s.) ibarətdir. Unitar dövlətlərdə vahid konstitusiya, dövlət hakimiyyətinin vahid ali nümayəndəli orqanları, vahid hökuməti, vahid vətəndaşlığı, vahid maliyyə-kredit və pul sistemi və s. olur.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən Prezident, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir. Bu hakimiyyət orqanlarından hər birinin fəaliyyəti Konstitusiya və qanunvericilik aktları ilə tənzimlənir. Azərbaycanın siyasi sistemində yerli özünü idarəetmə orqanları olan bələdiyyələr də mühüm yer tutur. Bu institut yeni yaranmasına baxmayaraq böyük perspektivə malikdir. Bütün müasir siyasi sistemlər kimi Azərbaycanın siyasi sisteminə də çoxpartiyalılıq, plüralizm xasdır.

### Azərbaycan Respublikasının dövlət rəmzləri

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsində göstərildiyi kimi Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir.

### Dövlət Bayrağı

Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. Üçrəngli bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilərək Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir.

### Dövlət Gerbi

Azərbaycanın Dövlət Gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmış, lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində gerb qəbul edilməmişdir. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət Gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət Gerbi kimi təsdiq etmişdir. Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət Gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

### Dövlət Himni

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini də qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

### Ərazi quruluşu və inzibati ərazi bölgüsü

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin hüquqi əsaslarını, eləcə də ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzi olan - Bakı şəhəridir.

## Dövlətimizin iqtisadi inkişaf strategiyası

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. 1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldilmişdir.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu Fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqların məcmusu kimi qiymətləndirmək olar.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətləri dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. 2003-2021-ci illər ərzində dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi xüsusi olaraq qeyd edilməlidir.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, erməni işğalından azad edilmiş ərazilərin bərpa edilməsi və bu da iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. İşğaldan azad edilmiş ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının, eyni zamanda, həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacib olan "Zəngəzur dəhlizi"nin açılması nəzərdə tutulmuşdur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhidlərin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq

Azərbaycan xalqı gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına bağlılıq və hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanın fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hisslərini formalaşdırır. Bu baxımdan sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi qəhrəmanlıq nümunəsinə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun qazandığı Qələbə xalqımızın yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Torpaqlarımızın düşməndən azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda şəhid olmuş Vətən övladları bu müqəddəs savaşın əbədiyyətədək yaşayacaq qəhrəmanlarıdır. Belə oğullardan biri də yaşadığı torpağa, Vətənə bağlı olan gizir Cahan Saleh oğlu Məmmədzadə idi.

Yaşasaydı, Cahanın 27 yaşı olacaqdı.

Cahan Məmmədzadə 1994-cü il avqustun 24-də Sumqayıt şəhərində anadan olub. 2000-2011-ci illərdə İsmayıllı rayonunun Mirzağa Əzimov adına Təzəkənd kənd tam orta məktəbində təhsil alıb. 2012-2014-cü illərdə hərbi xidmətdə olub. 2015-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı kursu"nu bitirib.




Gizir Cahan Məmmədzadə 2016-cı ildə Aprel döyüşlərində də fəal iştirak edib. 44 günlük Vətən müharibəsində Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilməsində fəal iştirak edərək noyabrın 5-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Cahan Məmmədzadə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan gizir Məmmədzadə Cahan Saleh oğlunun doğum günü xidmət etdiyi "N" hərbi hissənin bir qrup hərbi qulluqçusu tərəfindən Təzəkənd kənd qəbiristanlığında məzarı ziyarət olunaraq qeyd edilib.

Şəhidin valideynləri ilə görüşən hərbi qulluqçular qeyd ediblər ki, biz Vətən müharibəsində güclü həmrəyliyin, yenilməz ruhun bir daha şahidi olduq. “Cahan kimi oğullarımızın sayəsində Vətən müharibəsində Azərbaycan gəncliyi vətənpərvərliyini, əzmini bütün dünyaya nümayiş etdirdi. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. İgid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi təsdiqləyir ki, Azərbaycan xalqı qəhrəman xalqdır, öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirib. Ermənilərə qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın həyatı, şəxsi nümunəsi hərbi vətənpərvərlik tərbiyəsi işində daim diqqət mərkəzində olub”.

Şəhidin atası Saleh Məmmədov bildirib ki, oğlu ilə fəxr edir. "Vətənin bütövləşməsində oğlumun da iştirakı ilə qürur duyuram. Onun ruhuna hörmət əlaməti olaraq evimizə gələn hər bir qonağa, Şəhidlər xiyabanına və məzarlığa baş çəkən rayon sakinlərinə təşəkkür edirəm. Şəhidlərimizin əziz xatirələrini ehtiramla yad etmələri şəhidlərə olan böyük ehtiramdan xəbər verir. Bunlar şəhidlərimizin daim qəlblərdə yaşaması deməkdir."

Şəhidin anası İlhamə xanım Məmmədova qeyd edib ki, Cahan qisas hissi ilə yaşayırdı. "Bir dəfə mənə “Səni şəhid anası edəcəyəm”, demişdi. Oğlum buna əməl etdi. Mən oğlumla fəxr edirəm. Kədərliyəm ki, yeganə oğlumu itirdim, qürurluyam ki, şəhid anasıyam".

Şəhidin valideynləri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı qələbəsindən danışdılar, ailələrinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Canı bahasına şanlı tariximizi yazan əsgərlərimizlə fəxr etdiklərini, şəhidlərin əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını dedilər.

**Mayor**
**Məhəmməd ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# “Bayraktar”lar üçün müasir bombalar




Türkiyədə istehsal edilən müasir kəşfiyyat-hücum pilotsuz uçuş aparatları Roketsan şirkətinin MAM ailəsindən olan idarəolunan aviasiya bombalarını daşımağa qadirdir. Bu xətt çərçivəsində öz xüsusiyyətlərinə və imkanlarına görə fərqlənən üç növ döyüş sursatı yaradılıb. Onlardan biri MAM-T döyüş sursatıdır. MAM seriyasından (Mini Akıllı Mühimmat - "Ağıllı mikro döyüş sursatları") olan aviasiya bombaları əsasən pilotsuz uçuş aparatlarında istifadə edilmək üçün nəzərdə tutulub. Layihənin əsas məqsədi yüksək döyüş effektli və az çəkili döyüş sursatlarının yaradılmasıdır. Məsələn, pilotsuz uçuş aparatı “Bayraktar TB2” 150 kiloqrama qədər silah daşımağa qadirdir. Bu da ona HHQ-nin əsas bomba növlərindən istifadə etməyə imkan vermir. Bu yaxınlara kimi MAM ailəsində müxtəlif taktiki-texniki xüsusiyyətlərə malik cəmi iki döyüş sursatı var idi. Uzunluğu 1 metr, çəkisi isə 6,5 kiloqram olan MAM-S bombası mərmi-fuqas döyüş hissəsini və yarımaktiv özütuşlanan lazer başlığını daşıya bilirdi. MAM-S bombasının uçuş uzaqlığı 8 kilometr təşkil edirdi. Sonra çəkisi 22 kiloqram olan daha ağır çəkili MAM-L aviasiya bombası hazırlandı. Bu sursat peyk naviqasiyasından, mərmi və termobarik döyüş təchizatından istifadə etmək imkanına malikdir. Onun uçuş uzaqlığı 14 kilometrə qədərdir.

Roketsan şirkətinin MAM-T bombası ölçüsünə, çəkisinə, taktiki və texniki xüsusiyyətlərinə görə digər bombalardan fərqlənir. Bu yaxınlarda istehsalçı şirkət müasir silahın uçuş sınağının keçirilməsi haqqında məlumat verib. Perspektiv pilotsuz uçuş aparatı Bayraktar Akıncı yeni variant MAM-T bombasının atışını həyata keçirib və qeyd olunmuş hədəfi məhv edib. Bu həm müasir bomba üçün, həm də pilotsuz uçuş aparatı üçün ilk "döyüş" epizodu olub. MAM seriyasından olan aviasiya bombalarından nəinki pilotsuz uçuş aparatlarında, həmçinin qırıcı-bombardmançılarda da istifadə olunacaq. Öz xüsusiyyətinə və xarici görünüşünə görə MAM-T aviasiya bombası digər yüngül bombalardan fərqlidir. Gövdəsinin diametri 230 mm, uzunluğu 1,4 metr, çəkisi isə 94 kiloqrama qədərdir. Bomba inersiya və peyk naviqasiyası ilə təchiz edilib. Stasionar və hərəkət edən obyektlərin axtarışı imkanına da malik olması haqqında məlumat verilib. Onun əsas uçuş xüsusiyyətləri - hava platformasından, daşıyıcıdan, hündürlükdən və uçuş sürətindən asılıdır. Mövcud və perspektiv pilotsuz uçuş aparatları bombaları 30 kilometrlik məsafəyə qədər atmağa qadirdi. Yüngül zərbə təyyarələri üçün bu parametr 60 kilometr təşkil edir, səsdən sürətli qırıcılar isə hədəfə 80 kilometrlik məsafədən hücum edə bilir. MAM-T aviasiya bombası müxtəlif təyinatlı yerüstü hədəfləri məhv etmək gücünə malikdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan “Tokio-2020” Yay Paralimpiya Oyunlarında 15-ci medalını qazanıb

Azərbaycan komandası "Tokio-2020" Yay Paralimpiya Oyunlarında 15-ci medalını qazanıb.

100 metr məsafəyə qaçış yarışlarında finala vəsiqə qazanan təmsilçimiz Lamiyə Vəliyeva məsafəni 11,99 saniyəyə qət edərək Paralimpiadanın gümüş medalına sahib olub.

Hazırda Azərbaycan komandasının hesabında 15 medal var. Onlardan 10-u qızıl, 1-i gümüş, 4-ü isə bürüncdür. Paracüdoçular Şəhanə Hacıyeva (48 kq), Sevda Vəliyeva (52 kq), Xanım Hüseynova (63 kq), Vüqar Şirinli (60 kq), Hüseyn Rəhimli (81 kq), Dürsədəf Kərimova (+70 kq) qızıl, Namiq Abaslı (66 kq) və İlham Zəkiyev (+100 kq) bürünc medallara sahib olublar.

Yüz metr məsafəyə üzgüçülük yarışında Raman Saleh Paralimpiya çempionu (2 qızıl medal) adını qazanıb. Nizəatma yarışında dünya rekordu müəyyənləşdirən para-atletimiz Həmid Heydəri qızıl medala sahib olub. Elvin Astanov nüvəitələmə yarışında birinci, Səid Nəcəfzadə isə uzunluğa tullanmada üçüncü yeri tutublar. Pauerliftinqçi Pərvin Məmmədov (49 kq) fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Azərbaycan komandası "Tokio-2020"yə idmanın 6 növündə 47 kateqoriya üzrə rekord sayda - 36 idmançı ilə yola düşüb. Atletlərimizin 24-ü kişi və 12-si qadındır.

XVI Yay Paralimpiya Oyunları sentyabrın 5-dək davam edəcək.

## Azərbaycan gimnastı Bolqarıstanda bürünc medal qazanıb



Bolqarıstanda aerobika gimnastikası üzrə 12-ci "Plovdiv Cup" açıq turniri keçirilib.

Turnirdə ölkəmizi Vladimir Dolmatov, Nurcan Cabbarlı, Dilarə Qurbanova və Məryəm Topçubaşova təmsil ediblər.

Son dünya çempionatının finalçısı olan V.Dolmatov bu yarışda da fərqlənib. Bu dəfə o, üçüncü yeri tutub. İlk iki yerdə isə Meksika və İtaliya təmsilçiləri qərarlaşıblar.

## Rauf Məmmədov Avropa çempionatında liderlər qrupunda mübarizəni davam etdirir



Bu gün Reykyavikdə kişilər arasında şahmat üzrə Avropa çempionatının altıncı turunun oyunları keçiriləcək. Qitə birinciliyinin bu mərhələsində liderlər qrupunda mübarizə aparan Azərbaycan şahmatçısı Rauf Məmmədov fransalı Maksim Laqarde ilə üz-üzə gələcək.

Digər şahmatçılarımız - Nicat Məmmədov çexiyalı David Navara, Nicat Abbasov macarıstanlı Viktor Erdos, Aydın Süleymanlı almaniyalı Stefan Fruebinq, Read Səmədov macarıstanlı Adam Kozak ilə mübarizə aparacaqlar.

5 turdan sonra şahmatçılarımız R.Məmmədov 4,5 xalla 1-3-cü yerləri bölüşür. N.Məmmədov 4, N.Abasov 3,5, A.Süleymanlı, R.Səmədov 2,5 xal toplayıblar.

İsveçrə sistemi üzrə keçirilən turnir 11 turdan ibarətdir.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Teyyubov Ruhid Əzizxan oğluna məxsus SQ № 0012205 nömrəli gizirin şəxsi vəsiqəsi və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Azər Ceyhun oğluna məxsus AD № 0050706 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 505
Nüsxə 4009